UOT 638.21+ 638.23

ARDICIL DAMAZLIQ YEMLƏMƏLƏRİNDƏ MÜXTƏLİF TUT İPƏKQURDU CİNSLƏRİNİN MƏHSULDARLIĞININ ÖYRƏNİLMƏSİ

A.R.HÜSEYNOV
Azərbaycan Kənd Təsərrüfatı Akademiyası

İpəkçiliyin inkişafında əldə edilmiş nailiyyətlərə baxmayaraq, barama istehsalının həcmi və sürəti, sənayenin ipəkçiliyə olan bu günkü tələbatına cavab vermir.

Barama istehsalı və satışı hər il qurdların yaz yemləməsi əsasında həyata keçirilir və bu baxımdan tut ipəkqurdunun təkrar yemləmələrinin aparılması zərurəti aradan qalxır. Təkrar yaz və yay yemləmələrindən o vaxt istifadə edilir ki, barama istehsalına olan sifarişlər və tələbat çox olsun.

Barama istehsalına olan mövcud tələbatın yaz yemləmələri nəticəsində ödənilməsi təqdirəlayiq faktdır. Lakin, onu da nəzərə almaq lazımdır ki, tut ipək qurdlarının yemləndirilməsinin son dərəcə dar mövsümi olması, ipəkçiliyə yem mexanikləşdirmə və avtomatlaşdırma vasitələrinin aqrotexniki xarakterli yeniliklərin tətbiqinə ciddi əngəl yaradır ki, bu da son nəticədə müvafiq sahənin sənaye əsasına keçirilməsini ləngidir.

İpəkçiliyin səmərəli aparılması və başlıca olaraq onun dar mövsümilikdən çıxarılması, bu sahədə kümxanalardan, mexanizasiya və avtomatlaşdırma vasitələrindən səmərəli istifadə edilməsi qurdların təkrar yemləndirilməsinin təşkilini və aparılmasını tələb edir.

Tut ipəkqurdlarının təkrar yemləndirilməsinin mahiyyəti çəkilin vegetasiya dövrü ərzində biri sona çatmamış digərlərinin başlandığı bir neçə yemləmənin aparılmasından ibarətdir.

Təkrar yemləmələr, tut ipəkqurdunun daha çox əmək sərfi tələb edən IV-V yaş dövrləri (baramanın yığılması) ilə nisbətən az əmək sərfi tələb edən I-III yaş dövrlərinin uzlaşdırılması sayəsində mümkündür. Bu isə az əmək sərf etməklə dah çox həcmdə qurdların yemləndirilməsinə imkan verir.

Təkrar yemləmələr nəticəsində tut ipəkqurdu yemləmələrinin dar mövsümlükdən çıxaraq, təkrar yemləmələrə keçirilməsi, əmək sərfinin xeyli azalması şərtilə, barama məhsulunun artırılmasına şərait yaradır.

Bu məsələnin həlli üçün əvvəllər də çox saylı cəhdlər göstərilmişdir. Bu sahədə aparılmış tədqiqatlar da problemin həllində yay və yaz yemləmələrindən istifadə istiqaməti əsas götürülmüşdür [2, 5].

Çəkil yarpaqlarının boyatma və inkişaf fazalarını nəzərə almaqla yaz yemləmələrinin başlanğıcının optimal müddətinin təyin edilməsi və öyrənilməsi üzrə kifayət qədər çox tədqiqatlar aparılmışdır. Bütün bu tədqiqatlar nisbətən erkən yemləmələrin effektivliyini, bununla yaqaşı, yay yemləmələrinin iqtisadi cəhətdən səmərəli olmamasını göstərmişdir [1, 2, 5].

Ədəbiyyatda bu məsələ üzrə olan məlumatların və ipəkçiliyin aparılması təcrübəsinin analizi göstərir ki, hələlik Azərbaycan Respublikası şəraitində ipəkçiliyin dar mövsümlükdən çıxarılmasının yeganə yolu müəyyən intervalla qurdların ardıcıl yemləndirilməsinin təkrarlarının artırılması vasitəsilə yaz yemləmələri dövrünün uzadılmasından ibarətdir.

Belə ardıcıl yaz yemləmələrinin başlanğıcı arasındakı interval elə müəyyən edilməlidir ki, hər bir yemləmənin V yaş dövrünün başlanğıcında kümxananın daha çox sahəsi azad edilsin. Hesablamalar göstərir ki, yemləmələrin başlangıcları arasındakı belə intervalın 20 gün olması kifayətdir.

Təkrar yemləmələrin aparılmasının planlaşdırılması əvvəl bu məqsəd üçün seçilmiş tut ipəkqurdu cinslərinin olmasını tələb edir. Bu zaman onların hər bir müxtəlif yemləmə şəraitinə özünəməxsus reaksiyası nəzərə alınmalıdır. Bütün yuxarıda qeyd edilənləri nəzərə alaraq hazırkı işin məqsədi, Azərbaycanda rayonlaşdırılmış və perspektivli tut ipəkqurdu cinslərindən yaz mövsümündə təkrar yemləmələrdə daha yüksək məhsuldarlığa malik cinslərin seçilməsindən ibarətdir.

Ardıcıl yaz yemləmələri üçün ən yaxşı tut ipəkqurdu cinslərinin seçilməsi Azərbaycan Respublikasında rayonlaşdırılmış və perspektivli cinslərin bioloji və təsərrüfat əhəmiyyətli göstəricilərin öyrənilməsi ilə həyata keçirilir.

Baramada ipəyin miqdarı, ipək telinin uzunluğu, nazikliyi, qeyri-hamarlığı, möh-

kəmliyi cins xüsusiyyətləridir. Ona görə də tut ipəkqurdunun eyni saxlanma və yemlənmə şəraitində cins tərkibi böyük əhəmiyyətə malikdir. Ona görə də az məhsuldar cinslərin daha məhsuldar cinslərlə əvəz olunması alınan məhsulun miqdarının artmasında və keyfiyyətinin yüksəlməsində həlledici rol oynayır.

Cədvəl 1. Təcrübənin sxemi

S/s	Cinslərin adı	Yemləmə müddəti							
		Plan üzrə 15.04.	Fakt 3.04	Plan üzrə 05.05	Fakt 12.05	Plan üzrə 25.05	Fakt 31.05	Plan üzrə 19.06.	Fakt 23.06
1	Şəki-1	+	+	+	+	+	+	+	+
2	Şəki-2	+	+	+	+	+	+	+	+
3	AzNİİŞ-2	+	+	+	+	+	+	+	+
4	US-4	+	+	+	+	+	+	+	+
5	Pioner-2	+	+	+	+	+	+	+	+
6	Rəhimli-2	+	+	+	+	+	+	+	+
7	Yaşar	+	+	+	+	+	+	+	+

Tədqiqat obyekti olaraq aşağıdakı tut ipəkqurdu cinsləri götürülmüşdür: Şəki-1 (Ş- 2), Şəki-2 (Ş- 2), AzNİİŞ - 2, Ukrayna tezyetişən- 4 (US-4), Pioner- 2 (P-2), Rəhimli-2 (R-2), Yaşar (Y).

Cədvəl 2. Cinslərin bioloji göstəriciləri

Cinslər	Müddətlər	Toxumun dirilməsi, %	Tırtılların yaşama qabiliyyəti, %	Tırtılların yemləmə müddəti, gün	Baramanın kütləsi, q	Baramanın ipəkliliyi
Ş-1	I	89,3	98,5	29	1,60	21,03
	II	88,5	91,3	31	1,35	19,05
	III	82,5	83,5	32	1,13	16,59
Ş-2	I	76,3	97,8	29	1,75	20,62
	II	72,5	92,3	31	1,35	19,05
	III	60,9	98,3	32	1,15	18,57
Az-NİİŞ-2	I	94,6	91,6	29	1,62	21,23
	II	95,5	90,5	31	1,45	18,92
	III	92,2	84,5	31	1,03	20,01
US-4	I	89,6	96,6	29	2,15	20,37
	II	89,2	93,5	29	1,53	19,24
	III	83,1	93,0	32	1,13	17,94
P-2	I	78,0	98,0	29	1,67	21,52
	II	77,5	77,5	29	1,45	19,62
	III	67,9	78,7	32	1,05	20,01
R-2	I	72,0	98,7	29	1,71	21,05
	II	71,5	97,6	30	1,36	20,44
	III	53,8	82,8	32	1,09	18,99
Yaşar	I	89,0	98,5	30	1,73	20,36
	II	85,9	86,3	30	1,43	17,94
	III	79,3	79,0	30	1,15	16,78

Sxemdə 20 gün intervalla faktiki yemləmə müddətlərinin başlama müddəti göstərilmiş, faktiki başlama zamanı isə yazın gəlməsindən və toxumun canlanmasından asılı olaraq göstərilən müddətlərdən kənara çıxmalar nəzərə alınmalıdır.

Toxumların inkubasiyasının birinci müddəti çəkildə tumurcuqların kütləvi açılması ilə başlanmışdır.

Hər bir müddətdə inkubasiya üçün hər cins üzrə 1,3 qramdan az olmayan toxum götürülmüşdür. Birinci 3 yemləmə müddəti üçün əvvəlki ildən qalmış və qışlamanı keçmiş toxum, 4-cü yemləmə müddəti üçün isə, birinci yemləmə müddətindən hazırlanmış və turşu məhlulu ilə işlənmiş toxum götürülmüşdür.

III yaşda bütün cinslər üzrə tırtırllar sayılmış və hər biri 200 tırtıl olmaqla 4 təkrar formalaşdırılmışdır.

Tırtırlların yaşama qabiliyyəti IV yaşın başlanğıcında hesablanmış və onlar A.Q.Kafianın (1970) verdiyi üsulla yemləndirilmişlər.

Cədvəl 3. Cinslərin təsərrüfat göstəriciləri

Cinslər	Müddətlər	Verilmiş 1 kq yarpaqdan alınan məhsul, q		1 qutu tırtıldan alınan məhsul, kq	
		barama	xam ipək	barama	xam ipək
Ş-1	I	79,11	16,64 ± 0,14	69,9	12,8 ± 0,17
	II	73,24	14,36 ± 0,16	51,3	9,3 ± 0,10
	III	69,10	12,99 ± 0,10	61,7	8,6 ± 0,04
Ş-2	I	86,53	17,84 ± 0,11	87,1	15,3 ± 0,12
	II	65,61	12,49 ± 0,09	51,3	14,9 ± 0,16
	III	49,19	9,87 ± 0,08	49,7	8,6 ± 0,07
AzNİ-İŞ-2	I	75,93	16,02 ± 0,15	70,5	12,9 ± 0,11
	II	67,28	12,54 ± 0,10	50,7	9,5 ± 0,10
	III	43,66	8,74 ± 0,07	37,9	6,7 ± 0,02
US-4	I	95,02	19,35 ± 0,13	88,2	14,4 ± 0,18
	II	73,02	14,05 ± 0,12	58,9	10,2 ± 0,03
	III	53,07	9,52 ± 0,08	49,7	8,1 ± 0,02
P-2	I	73,56	16,70 ± 0,06	83,6	15,9 ± 0,21
	II	63,20	11,3 ± 0,02	48,6	8,1 ± 0,06
	III	38,20	7,25 ± 0,05	41,0	6,9 ± 0,09
R-2	I	72,16	15,89 ± 0,18	78,8	11,3 ± 0,17
	II	60,5	10,4 ± 0,12	46,8	7,3 ± 0,15
	III	41,7	8,45 ± 0,07	40,5	6,4 ± 0,04
Yaşar	I	86,64	17,64 ± 0,20	89,9	16,6 ± 0,23
	II	63,28	11,37 ± 0,14	53,5	9,3 ± 0,05
	III	45,68	7,66 ± 0,09	41,0	6,7 ± 0,07

Aparılmış tədqiqatlar nəticəsində Azərbaycan Respublikasında rayonlaşdırılmış və perspektivli olan 7 tut ipəkqurdu cinslərinin bioloji və təsərrüfat əhəmiyyətli göstəriciləri öyrənilmişdir.

1-ci cədvəldən göründüyü kimi sınaqdan keçirilən cinslər arasında, I müddətindən III müddətə doğru yaşama qabiliyyəti Ş-1, Ş-2, AzNİİŞ-2, US-4 cinslərində digər cinslərlə müqayisədə daha az dəyişir. Ş-2 cinsində II müddətdə I müddətlə

müqayisədə 5 faiz aşağı düşşə də III müddətdə I müddətdəkindən də nisbətən yuxarı olur. US-4 cinsində isə demək olar ki, dəyişmir. Digər cinslərdə I müddətdən III müddətə doğru yaşama qabiliyyəti 20%-ə qədər aşağı düşür. Yaşama qabiliyyətinin aşağı düşməsinə səbəb yarpağın qidalılığının pisləşməsi və havanın nisbətən isti olmasıdır. Lakin görünür ki, Ş-1, Ş-2, AzNİİŞ-2, US-4 cinslərində yemləmə müddətinin dəyişməsinə qarşı özünəməxsus fizioloji uyğunlaşma baş verir. Göstərilən cinslər baramanın kütləsinə və ipəkliliyinə görə də digər cinslərdən fərqlənirlər. Cədvəl 2-də sınaqdan keçirilən cinslərin təsərrüfat əhəmiyyətli göstəriciləri verilmişdir. Bioloji göstəricilərə görə Ş-1, Ş-2, A-2, US-4 cinsləri digər cinslərə nəzərən malik olduqları nisbi üstünlüyü saxlayırlar.

Alınmış nəticələr göstərir ki, I və II müddətlərdə sınaqdan keçirilən cinslərin məhsuldarlıq göstəriciləri III müddətlə müqayisədə aşağı düşsə də məhz cinslər arasındakı fərq III müddətdə özünü göstərir ki, bu da müxtəlif yemləmə müddətləri üçün müvafiq cinslərin seçilməsində mühüm rol oynayır.

ƏDƏBİYYAT

1.Бадалов Н.Г. Экологические и генетико-селекционные основы повышения оплаты корма тутового шелкопряда. Автореф. дисс. д-ра наук, 1984. 2.Бадалов Н.Г. Исследование качеств листа основных селекционных сортов шелковицы по сенозом выкормки // Труды Грузинского сельхозинститута. Тбилиси, 1972. 3.Халматов Д.И., Нуманов М.И. Влияние различного режима кормления на продуктивность гусениц породы тетрагибрид-3 и Гулистанская-3. Пути повышения кормовой базы шелководства и продуктивности тутового шелкопряда. Ташкент, 1982. 4.Клименко В.В. Подбор пород поточных племенных выкормок тутового шелкопряда // Материалы науч. прак. Конференции, «Проблемные вопросы развития шелкопряда». Харьков, 1999, с. 202-205. 5.Хафизов Н.Р. К вопросу о многократных выкормках шелкопряда // Научно-исследовательские работы САНИИШ, Ташкент, 1955.

KƏND TƏSƏRRÜFATI İSTEHSALININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

V.Q.NƏCƏFOVA, aspirant
Az.ETKTİ və Tİ

Milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında qurulması müasir iqtisadi strategiyamızın ana xəttini təşkil edir. Bu günün reallığı Azərbaycan iqtisadiyyatının dünya iqtisadi svilizasiyasına inteqrasiya olunması, onun beynəlxalq əmək bölgüsündə yaxından iştirakı, iqtisadi münasibətlərin əsasını təşkil edən mülkiyyət münasibətlərinin yeniləşməsi və çoxukladlı azad iqtisadiyyatın bərqərar olması ilə səciyyəvidir. Bazar iqtisadiyyatına keçid, təbii ki, daxili və xarici bazarın formalaşması və onun strukturunda köklü dəyişikliklərə səbəb olacaqdır.

Dünya təcrübəsi bazar iqtisadiyyatının səmərəli olduğunu sübut etmişdir. Respublikamızın bazar iqtisadiyyatına keçməyini cəmiyyət üzvlərinin mənafeləri tələb edir və bu keçidin məqsədi sosial iqtisadi azadlığını əməli işlə təmin etmək, yaradıcı əməyə və təşəbbüsə geniş meydan açmaq və sahibkarlıq fəaliyyətini genişləndirməklə ölkə əhalisinin maddi rifahını yüksəltməkdir.

İqtisadi ədəbiyyatlarda bazar anlayışı əmtəə tədavülü sferası və cəmiyyətin məcmu məhsulunun təkrar istehsal elementi və onun tərkib hissəsinin hərəkəti kimi qəbul edilir. Bazar münasibətlərinə keçid mürəkkəb proses hesab edilir və istehsalın tənəzzülü, bir sıra təsərrüfat əlaqələrinin qırılması, istehlak bazarının, pul dövriyyəsinin pozulması, qiymətlərin artımı, inflyasiya, istehsalda durğunluq və s. ilə səciyyələnir.

Bazar iqtisadiyyatı digər iqtisadi sistemlərdən əsasən fərqlənir. İ.e.d., proffessor Ə.Ç.Verdiyevin fikrincə «Bazar iqtisadiyyatı dedikdə – hər şeydən əvvəl azad sahibkarlıq, mülkiyyətin dövlət tabeliyindən çıxarılması, əsas malların topdansatış və pərakəndə satış qiymətləri sahəsində məhdudiyyətin ləğv edilməsi, qiymətqoyma azadlığı, rəqabət və müəssisələrə istehsal proqramını hazırlamaqda müstəqillik verilməsi başa düşülür» (3, səh. 11).

Araşdırmalar göstərir ki, inkişaf etmiş bütün ölkələrdə iqtisadiyyat dövlət tərəfindən müxtəlif səviyyədə tənzimlənir və dövlətin aktiv tənzimləyici rolu olmadan təsirli bazar iqtisadiyyatı yaratmaq olmaz.

Ölkəmizdə son illərdə sosial-iqtisadi in-